Elm və təhsil nazirinin müavini Həsən Həsənli dekabrın 22-də Bakıda keçirilmiş Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının 12-ci iclasında iştirak edib.

Hökumətlərarası Komissiyanın iclasında ilk öncə həmsədrlər - Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz çıxış ediblər.

İclasda çıxış edən nazir müavini Həsən Həsənli iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti barədə iclas iştirakçılarını məlumatlandırıb. Nazir müavini Türkiyə-Azərbaycan Universitetinin (TAU) ali təhsil sahəsində uğurlu əməkdaşlığı, eyni zamanda universitetin fəaliyyəti, nəticələri və ali təhsil sistemində növbəti imkanları barədə məlumat verib.

Həsən Həsənli çıxışında həmçinin qarşılıqlı tələbə və elmi-akademik heyətin mübadiləsinin genişləndirilməsi, peşə təhsili, ümumi təhsil və ali təhsil müəssisələri arasında akademik əlaqələrin dərinləşdirilməsi istiqamətində görülmüş işlərdən bəhs edib.

Yekunda iclasın yekunlarına dair Protokol imzalanıb.